# İlin vətənpərvər bəstəkarı

## Aybəniz Bəhramqızı: ""Atam Dağıstanda "Azərbaycan qoçusu" ləqəbi ilə tanınıb"

***Tanınmış bəstəkar Aybəniz Bəhramqızı 23 ilə yaxındır ki, doğulduğu Ağdam rayonundan ayrı düşüb. O bu gün yurd həsrəti, ağrı-acıları ilə yaşayıb-yaradır. Onun bəslədiyi mahnıların böyük əksəriyyəti elə doğma Qarabağla, vətənlə, yurdla bağlıdır. Bəribaşdan qeyd edim ki, Aybəniz xanım 200-dən çox mahnı yazıb. Onun mahnıları bir çox tanınmış müğənnilər tərəfindən sevilə-sevilə oxunur. "Həftə içi"nə öz həyatından, atasının kimliyindən və keçdiyi sənət yolundan danışan Aybəniz Bəhramqızı bildirdi ki, ailədə 6 uşaq olublar: 4 qardaş və 2 bacı. Dediyinə görə, ailədəki uşaqların içərisində ən dəcəli və ərköyünü də elə özü olub: "Atam daha çox məni sevərdi.***

Ona görə ki, hələ 3 yaşımda olarkən bir gün atam məni qucağına alıb Xaçın çayından keçimək istədi. Qəflətən atamın ayağı sürüşüb suyun dərinliyinə düşdü. Çayın suyu üstümüzdən keçəndə dedim ki, ata, qoyma mən ölüm. Onda atama güc gəldi və sürətlə çayı keçə bildik. O gündən atamın qəlbində mənə qarşı böyük bir sevgi, istək olub. Hələ birinci sinifdə oxuyanda dərslərimlə böyük qardaşım məşğul olardı.Əlifbada həmişə "I" hərfini unudurdum, deyə bilmirdim. Bir gün "I" hərfini tələffüs edə bilmədiyimə görə qardaşım məni yatmağa qoymadı. Gecə vaxtında işləyən atam sübh tezdən evə qayıdanda onun üstünə atılıb, qardaşımı məni səhərə kimi yatmağa qoymadığını deyib, ağladım. Atam cavab verdi ki, mən bunu hiss etdiyimdən sabahacan narahat olmuşam, ona görə də tez gəldim görüm ki, qızım sənə bir şey olmayıb ki, Çünki məndə uşaqlıqdan qeyriadi bir qüvvə var idi. O gündən atam hamıya tapşırdı ki, məni bir də incitməsinlər.



Atamla biz bir dost, sirdaç kimiydik. Ona görə də bir işi tutmazdan əvvəl ondan məsləhət alardım. Atam həm də ulu öndər Heydər Əliyevin dostu olub. Ona görə ki, atamın böyük keçmişi olub. Atam qanunpərəs , haqqı sevən bir şəxsiyyət idi. Atam 1968-ci ilə kimi Dağıstan MR-də Banditizm və Terrorizmə Qarşı Mübarizə İdarəsində, eləcə də dövlət təhlükəsizlik orqanlarında çalışıb, Böyük Vətən Müharibəsi veteranı idi. Bir sözlə, atam Dağıstanda "Azərbaycan qoçusu" ləqəbi ilə tanınıb. Sonra Azərbaycana gəlib müxtəlif vəzifələrdə çalışıb. Axırıncı dəfə atam Bəhrəm kişi 1966-cı ildə Heydər Əliyevin qonağı olub".

### "İttifaq respublikaları arasında qalib olduq"

**Tanınmış bəstəkar ilk fəaliyyətə "Qarabağ bülbülləri" ansamblından başladığını dedi. Onun sözlərinə görə, xalasıqızı Tahirə İsmayılova Murad Rzayevin Ağdam Pioner Evinin nəzdində yaratdığı "Qarabağ bülbülləri" ansamblının solisti idi, kamançada ifa edərdi:** "1974-cü ildə Ağdamda fəaliyyət göstərən Özəl Müəllimlər Evi Musiqi Məktəbində piano sinfində oxuyurdum, həm də gözəl səsim vardı. Ağdam şəhər 8 saylı orta məktəbin 1-ci sinfindən 10-cu sinfinə kimi məktəbimizin radio qovşağında mahnılar ifa edərdim. Məni xalq artisti Zeynəb Xanlarovaya bənzədirdilər. Bir sözlə, pianoda gözəl mahnılar ifa edərdim. Bir günTahirə mənə dedi ki, "Qarabağ bülbülləri" ansamblına pianoda yaxşı ifa edən yeniyetmə uşaq lazımdır, sən gözəl mahnılar ifa edirsən, Murad müəllim mütləq səni o ansambla solist götürəcək. Xalaqızıyla Murad müəllimin yanına gedib musiqi məktəbində piano sinfində təhsil aldığımı ona dedim. Dünya şöhrətli musiqiçi Murad Rzayev pianoda çaldığım bir-iki mahnıma qulaq asdı. Mahnılarım onun çox xoşuna gəldi və məni rəhbərlik etdiyi ansambla solist kimi işə qəbul etdi. "Qarabağ bülbülləri" ansamblının tərkibində rayonlara, eləcə də dünyanın bir çox ölkələrinə qastrollara gedərdik, piano olmayan yerlərdə qarmonda ifa edərdim. 1976-78-ci illərdə Moskvanın Qurultaylar Sarayında respublikalar üzrə keçirilən mahnı festivallarında iştirak etdik. 15 respublikanın içərisində "Qarabağ bülbülləri" ansamblı 1-ci yeri tutdu. O günlər həyatımın ən xoşbəxt, yaddaqalan illərinə çevrilib".

### "Bir gün Tacir telefonla zəng etdi ki..."

**Aybəniz xanım tanınmış müğənni Tacirlə tanış olduğu günləri xatırlayaraq,"Qarabağ bülbülləri" ansamblının bir məktəb olduğunu və böyük bir yol keçdiyini də söylədi. Onun sözlərinə görə, həmin ansamblda əsl istedadlar yetişdirilirdi:** "Dünyanın elə bir ölkəsi olmayıb ki, biz adıçəkilən ansamblın tərkibində orda olmayaq. Tanınmış müğənni Tacir çox istedadlı uşaq idi. Hələ uşaqlıq illərindən onun böyük gələcəyini görürdüm. Tacirin 6, mənim isə 12 yaşım olanda onunla "Qarabağ bülbülləri" ansamblında tanış oldum. İlk tanış olduğum



gündən istedadlı bir uşaq olduğundan ona sevgim artdı. 1977-ci ildə "Qarabağ bülbülləri" kinoya çəkilirdi. Həmin filmdə mən "Qarabağ" mahnısını ifa etdim. Moskvadan mərkəzi televiziya kanalı ilə verilən "Azərbaycan günləri" verilişində həmin o mahnı mənim ifamda təkrar səsləndirildi. Moskva şəhərində keçirilən festival günlərində biz 15 gün qalıb festivala qədər məşqlər edərdik. Tacirlə bir otaqda qalırdıq. O vaxtdan da ürəyimdə bir arzu yarandı, mən bəstəkar olacağam, deyib mahnılar yazıb Tacirlə oxuyacağam. 1980-ci ildə artıq bu arzuya çatdım və gözəl mahnılar yazmağa başladım. 1993-cü ildə təsadüfən Tacirlə qarşılaşdıq və mahnı yazdığımı ona söylədim, iki kasetə köçürdüyüm mahnılarımı ona verdim. Bir gün Tacir telefonla zəng edib mənə sənin bir mahnını hazırlamışam, səni restorana dəvət edirəm, gəl, mahnıya qulaq as, dedi. Həmin gün Tacirin qonağı oldum. Tacir yazdığım "Nazlı ceyranım" mahnısını çox gözəl ifa etdi. O gün mənim ilk mahnım səsləndi və ilk ifaçım da elə Tacir Şahmalıoğlu oldu".

Müsahibimiz bu günə kimi 200-dən çox mahnı yazdığını da dilə gətirdi. Onun sözlərinə görə, yazdığı mahnılar bu gün də populyardı: "Mahnılarımı isə Ruslan Səfiroğlu və Şahin Əhmədzadə ifa edir. Yeri gəlmişkən onu da deyim ki, bəstəkar, oranjmançı və müğənni Şahin Əhmədzadə ilə iş birliyi qurumuşuq. İnşallah bu yaxınlarda onunla birgə yazdığımız mahnıları xalqımıza çatdıracağıq. Şahinlə birlikdə sözləri şairə Azadə Talehin olan "Xocalı", "Azərbaycan", sözləri Natiqənin olan "Sənsiz olmaq istəmirəm" mahnıları duet şəklində ifa edəcəyik. Onu da nəzərinizə çatdırım ki, mən vətən, yurd həsrətli bir insanam. Vətənimə. Torpağıma olan sevgim hər an qəlbimi sızladır. Ona görə də vətənpərvər mahnılara daha çox üstünlük verirəm. Mükafata layiq görülən mahnılarım da kifayət qədərdir. Bütün ictimai tədbirlərə dəvət olunuram, bir sıra fəxri diplomlara və fərmanlara layiq görülmüşəm. ilin vətənpərvər bəstəkarı kimi tanınmışam. Möhtərəm prezidentimiz İlham Əliyevə yazdığım əsər bu yaxınlarda efirə çıxacaq. Xalq şairləri Süleyman Rüstəm, Məmməd Araz, Tofiq Bayram, Sabir Rüstəmxanlı, eləcə də Famil Mehdi, Malik Həmid, Taleh Həmid, Çingiz Əlioğlu, Həmid Abbas, Rasim Eloğlu və Qələndər Xaçınçaylı kimi tanınmış şairlərin yaradıcılığına daha çox müraciət edirəm".

*✍ Qələndər Xaçınçaylı*